# ŞUMERLƏR SİVİLİZASİYASI AZƏRBAYCAN VƏ ŞUMERİN TARİXİ ƏLAQƏLƏRİNƏ DAİR BƏZİ MÜLAHİZƏLƏR

**AKİF MƏMMƏDLİ**
*Tarix elmləri üzrə fəlsəfə doktoru,*
**HƏSƏN HƏSƏNOV**

*Bir olan Allaha şərik olma, bir də allahsızlığa, yerdə qalan nə varsa hamısını bölüşmək olar.*

**İşıldayan həqiqətlərə doğru tarixdə ilk əkinçilik, ilk mədəniyyət, ilk yazı və ilk dastan yaradan ŞUMERLƏR**

Kiçik görünən, lakin mahiyyəti etibarı ilə günümüzə qədər bütov bəşəriyyəti düşündürən Şumerlərə həsr olunmuş bu yazıya-məqaləyə alman filosofu məşhur Hegelin bir ifadəsi ilə başlamaq istəyirəm: "Həmişəyaşar və əbədi görünən uca dağların səhər açıb axşam da solan güllərdən üstünlüyü nədədir". Bu məqalə qarışıq nə zamansa sübut edilsə ki, indiyənə kimi ölü hesab edilən Şumerlərin dili Azəri ləhcəsində aydınlaşır, "dirilir" -bu fakt bizim digər xalqlardan heç bir üstünlüyümüzə əsas vermir.

Bugünkü günümüzdə az və ya çox dərəcədə güc sahibi olan xalqlar, dövlətlər Şumer sivilizasiyasına sahiblənməyə çalışırlar. Düşündüyüm odur ki, Şumer mədəniyyəti o qədər böyükdür və möhtəşəmdir ki, dünyada yaşayan hər bir xalqın, hər bir millətin bu sivilizasiyada öz payı və yeri vardır. İndiyənə kimi gəlmiş – keçmiş canlı varlıqların ən böyüyü mavi balina ömrünü başa vurduqdan sonra okeanın dibinə enir, əvvəlcə akulalar, getdikcə isə balaca balıq və qurdlar üçün uzun müddət qida mənbəyi olur, axıra qalan sümükləri isə daş – qaşa çevrilir, özünü bütün orqanları ilə birlikdə okean sularına bəxş edir. Şumerlər sivilizasiyası da eyni aqibəti yaşayıb, dövrünü başa vurmuş bu sivilizasiyanın qalıqları üzərində neçə - neçə ölkələrin və xalqların mədəniyyətləri intişar tapmışdır.

Tarixin bir çox mərhələlərində öz sözünü demiş Azəri xalqı olaraq bu istiqamətdə üzərimizə düşən işləri görməli, elmi tədqiqatları daha dərindən aparmalıyıq. Hətta bir sıra dövlətlərdə bu sivilizasiya ilə bağlı böyük elmi mərkəzlər fəaliyyət göstərir. Bu sivilizasiya ilə əlaqədər bizim əsas vəzifəmiz münasib elmi sahələrin koordinasiyasını təşkil edərək, səbrlə düşüncə ilə doğru bildiyimiz səmtdə fəaliyyət göstərməkdir.

Dəqiqini Allah bilir!

Şumerlərdən ------- Himalaya, Subarlardan -------- Sibiryaya tarixin böyük köçü.

Elə araşdırmanın əvvəlində bu qədim mədəniyyətin ( e.ə V min – e.ə II min-in əvvəllərinə kimi) aşkar olunmasında Avropa, yəhudi, türk araşdırmaçıların – Roulson, Hinks, Oppert, Baur, Kramer, Müəzzəz İlmiyə Çığın zəhmətləri əvəzsizdir. Bu tədqiqatçılar fars, elam, babil mixi yazılarını deşifrə etməklə Şumerlərin öyrənilməsi üçün böyük xidmətlər göstərmişlər.

Tibdə "kök" hüceyrələr, dəqiq elmlərdə maddələrin nüvəsi, dilçilikdə və tarixdə isə "açar" sözlər deyilən ifadələr var. Hər hansı tarixi prosesin və hadisənin adı onun mahiyyətini, nüvəsini təşkil edir və açar rolunu oynayır. Məsələn "40 il qul kimi yaşamaqdansa bir gün azad, Hürr yaşamaq"-göründüyü kimi buradakı Hürr sözü o möhtəşəm hərəkatın mahiyyətini açaraq tam ortaya qoyur, bir azadlıq hərəkatı kimi-hürrəmilər, Almaniyada protestantizm, Çində "Tiryek" müharibələri və s. kimi misallar gətirmək

olar ki, bu başlıqlar tarixi proseslərin mənasını xeyli dərəcədə aydınlaşdırır.

Adlarını yazının əvvəlində çəkdiyimiz həm Avropa alimləri, daha sonra Rusiyada fəaliyyət göstərən Dyakonov kimi mütəxəssislər də Şumerlər ifadəsinin deşifrə olunmasına dəfələrlə cəhd göstərsələr də heç bir uğura nail ola bilmədiklərindən Şumer dilini "ölü" dil hesab edərək bir kənara qoymuşlar. Bu yöndə nisbətən uğurlu addımı qazax alimi Oljas Suleymanov atmışdır. Belə ki o, məşhur "Az i Ya" əsərində Şumer sözünə gətirdiyi açılışma bu formadadır. O, bu ifadəni su və yer sözünün birləşməsi kimi izah edir. Lakin göründüyü və eşidildiyi kimi Şumer ifadəsi ilə suyer sözü həm orfoqrafik, həm də fonetik olaraq bir-birindən çox fərqlənir. Yəni, O. Suleymanovun Şumer ifadəsinə bu yanaşması da onu tam açmır, həll etmir və çevrə qapanmır.

Bu sivilizasiyaya aid olan kilid sözlərdən mən yalnız 4 ifadə üzərində təhlil aparmağa çalışacağam, xüsusən də, Şumerlər termini ətrafında.

1.ŞUMER və ya Şumerlər.
2.Gilqamış dastanı.
3.Subarlar.
4.Gen və Genezis.

I. İndi isə bu dörd ifadədən ən ümdə hesab edilən Şumer və ya Şumerlərin deşifrəsini verib, sonra isə izah etməyə cəhd edək, həm forma və məna, həm də toponimika baxımından.

a) Şumlanmış yerlər, Şum yerləri, Şumerlər.
b) Şum edən ərlər (erler) Şumərlər və ya Şumerlər.

Tədqiqatçılar daha çox Şumer deyil, Şumerlər ifadəsinə üstünlük verirlər. Biz də A bəndinə üstünlük verək. (Lakin, hər iki variantda mahiyyət eynidir) A bəndinə önəm verilsə belə, bir forma yaranır: -Şum və yer sözünün birləşməsi halında Y hərfi ixtisara düşməlidir. Çünki iki sözün birləşməsi zamanı samitlər üz-üzə gələrsə onda dodaqlanmayan samitin öz yerini dodaqlanan samitə güzəştə getməsi qramatikanın qanuna uyğun halıdır.

Bu gün də Azəri kəndlisi alatorandan durub torpaq sahəsinə, Şum yerlərinə gedir torpağı becərmək üçün. Buradan isə B variantı üçün də cığır açılır-şumla məşğul olan insanlara Şumərlər və ya Şumerlər deyilə bilərdi. Ancaq mən də o versiya ilə razıyam ki, həmin ərazilər şum yerləridir, Şumerlərdi yəni, toponimdir-coğrafi addır.

Bu sözün izahı zamanı bizim bəxtimiz yalnız onda gətirib ki, şumerlərlə məşğul olan bütün tədqiqatçılar bir məsələdə bütünlüklə həmrəydilər-tarixdə ilk mədəni həyatın bel sütunu olan əkinçilik şumerlərlə bağlıdır.

Noy Samuel Kramer isə deyir ki, insanlıq, mədəniyyət tarixi Şumerlərlə başlar.

II. İkinci əsas kilid söz hesab edilən Gilqamış terminini İkiçayarası vadisinin təbii-coğrafi panoraması ilə birlikdə təhlil etməyə çalışaq.

Tanrının peyğəmbərləri - Musaya Tövratın kimsənin qalxa bilməyəcəyi Tur dağının zirvəsində, İsaya İncilin insanlığın dirilməyə möhtac olduğu çökmüş bir mühitdə, Məhəmmədə Quranın bir dolça suya həsrət qalan qumlu səhralarda vəhy olunması hansı səbəbdən idisə, əkinçilik üçün əlverişli yerlərin bol olduğu halda, bir yanı bataqlıq olan Mesopatamiyada Şumerlərin ilk əkinçiliyə başlaması da eyni səbəbdən idi. Düşünürəm ki, bataqlığa yaxın ərazilərin seçilməsini sanki Tanrı özü diqtə etmiş və bu seçim özündə bir neçə vacib şərti birləşdirirdi.

1. Birinci - insanların mədəni həyata başlamalarının ən vacib şərti əkinçilik idi, çünki əkin sahələri ilboyu əkinə qulluq və onu qorumaq tələb edirdi. Dədə Qorqudda bu yanaşma daha lakonik halda ifadə edilib-əgər torpağı qorumursansa əkməyə, əkmirsənsə də qorumağa dəyməz. Belə olan halda insanlar oturaq həyata keçib kiçik də olsa evlər, daxmalar qurmalı idilər. Bunun üçün tələb olunan material gildən olan kərpiç və qamış idi, bu materiallar üçün də ən münasib məkan bataqlıqdır.

2. Oturaq həyat üçün tələb olunan ikinci şərt yazının bir sistem halına gətirilməsi və tədrisin mütəmadi təşkili idi, yəni dəftər, kağız əvəzinə yaş gil tabletlərdən, qələm əvəzinə isə çəpinə kəsilmiş qamış çubuklardan istifadə olunması idi.

3. Nəhayət, bataqlığa yaxın ərazinin seçilməsinin üçüncü şərti əvvəlki iki material səbəbdən fərqli olaraq metafizik bir anlam daşıyırdı.Yəni uca Yaradan insanın nə torpaq, nə də sudan deyil, onların hər ikisinin qarışığı olan palçıqdan yaratdığına işarət verirdi.

Gilqamış tarixin ilk dastanı hesab olunur, mənim qənaətim belədir ki, gil tabletlər çivi ilə mıxla yazılan mətnlərdən fərqlidir. Çivi yazılarında ucu itilənmiş çubuqlardan və ya iti daş parçalarından istifadə olunurdu. Gil yazıda isə bunlar, yəni Çiv və Mıx gil tabletlər üzərində idioqram ifadələri yazarkən hərf yerlərini, işarə yerlərini oyarkən oradan çıxan gil palçıqlar elə həmin lövhənin üzərində qala bilər, münasib olmayan bir görüntü yaradardı. Məsələn, mətnlərin birində belə

deyilir; dərs zamanı şuluqluq edən, oxumaq istəməyən uşaqları Lidinqura müəllim uşaqların əlindəki qamış çubuğu ilə cəzalandırırdı. Beləliklə yaş gilin üzərində bir ucu çəpinə kəsilmiş qamışla yazmaq daha asan və əlverişli olmalı idi. Tabletdə işarələrin yeri açıldıqca artıq qalan gil hissəcikləri qamışın içərisinə dolaraq yazı prosesinə əngəl ola bilmirdi. Qamışın içərisinə dolmuş gil qalıqlarını təmizləmək üçün sudan da bir vasitə kimi istifadə oluna bilərdi.

III. Subarlar ifadəsi-su sözü hər kəs üçün aydın olduğundan keçək bar sözünə bar bu gün aşağıda olan mənaları özündə birləşdirir; çoxlu, barlı, sıx, toplam və cazibə anlamında. Subarların yerləşdiyi məkan Mesopatamiyanın şimalı, Anadoludakı böyük dağ massivlərinin ətəkləridir. Kür-Araz, Dəclə-Fərat və bir çox digər çaylar sularını bu mənbədən toplayır.

E.ə III minilliyin sonlarına yaxın başlayan xalqaların böyük köçü zamanı subarlar da bu tarixi miqrasiyadan kənarda qala bilməzdilər. Ciddi iqlim dəyişikliyi və aramsız müharibələr zəminində baş verən bu köçlər həm qərbə, həm də şərqə istiqamətlənməklə çarpaz xarakter daşıyırdı. Subarlar uzun zaman məskunlaşdığı şəraitə uyğun gələn, bol sulu çaylarla zəngin olan Ural dağlarından Yakutiyanın şərq sərhədlərinə qədər səpələnmişlər. Subar sözünün Sibiryaya doğru aşınması hər iki coğrafiyada su hövzələrinin bol olması ilə əlaqəli ola bilərdi. Bu tarixi köç zamanı Şumerlərin bir hissəsi də şərqə tərəf üz tutaraq Altay, Himalay dağ silsilələrinin şimal-qərb səmtində məskunlaşdılar. Şumerlərin elmi bilik və dünyagörüşünün genişliyindən xəbər verən bir əlaməti xatırlatmaq yerinə düşər. Onlar birinin hündürlüyü təxminən 7000 m, digərinin hündürlüyü 9000 m olan iki dağ massivinə bir-birindən fərqlənən gözəl adlar veriblər, birincisi ayın altı kimi görünən-Altay, ikincisi isə daha uca olduğundan zirvələri buludlardan yuxarı qalxan, sanki aydan him alırmış kimi Him-al-ay -Himalay. Şumerlər mədəniyyətinin dərin kökləri onu Himalay zirvələrinə qalxmasına imkan vermişdir.

IV. Gen sözü - bu gün hansı formada yazılır hansı mənada ifadə olunursa, Şumerlərdə də həmin formada yazılıb, həmin məzmunda da işlənib; yəni hər bir işi aşağıdan, ən xırda detallardan, təmiz, əsaslı, özüldən görülməsi-gen, bol və şen olsun mənasında. Hər bir işi möhkəm görmək-gennen gərmək, tarım etmək-buradan da daha bir ifadənin aydınlaşmasına da imkan yaranır; bir sıra mənbələrdə Şumerlərin özlərini həm də Gengərlər adlandırdıqları söylənilir.

Eşitdiyim qədəri səmavi kitabların birində belə bir ayə var “Heç nəyin tumunu dengəsini dəyişməyin”, yəqin ki, gen nəzərdə tutulur.

XX əsrin ortalarında DNT-nin (dezo nuklein turşusu- yəni genetik informasiyanın daşıyıcısı) kəşfi tibb, təbiət, elecə də digər sahələrdə böyük rezonans yaratdı. Qidaların geninin dəyişməsi haqqında, onun verəcəyi ağır fəsadları haqqında demək olar ki, hər kəsin məlumatı var. Lakin ən təhlükəli insan geninin dəyişilməsidir, təəssüf ki, bütün şeylərin genini də dəyişən insandır. Bəşər yaranandan bu günümüzə qədər insan yaddaşı DNT geni üzərindən nəsildən nəsilə ötürülərək min illikləri əhatə edən bir zəncirvari əlaqə yaradır. Əgər bu DNT geni dəyişilərsə, insan manqurta çevrilib kökü, əcdadı ilə bütün əlaqələri kəsir.Texniki tərəqqinin belə sürətli gedişi qlobal olaraq ictimai sosial münasibətlərdə öz təsirini göstərir, ədalət, bəşəri dəyərlər dağılır və qırılır. Bu yerdə Xudu Məmmədovun bir fikri yadıma düşür. O deyir ki, məktəbdə şeiri əzbər söyləyəndə ortada yaddan çıxan vaxt qayıdıb şeiri əvvəlindən bir də deməyə başlayırdıq. O sözə qüvvət, biz elə bil 5000 min il əvvəlki Şumer mədəniyyətinin dağıldığı yerə qayıdıb yenidən gəlməliyik.

Eynşteynin nəzərincə, sürət artdıqca cisimlərin çəkisi və zaman mütənasib olaraq itməyə, yox olmağa doğru gedir, məncə bəşərilikdə, ədalətdə də eyni proses baş verir.

Mesopatamiya əraziləri XXI əsrin əvvəllərində bir daha şumlandı, bu dəfə müasir silahların, raketlərin vasitəsi ilə. Şumerlərin sivil həyatlarının bir çox sahələri məhv edildi, onlardan qalan qamışla yazılan gil tabletler oldu. Gilqamış dastanında digər qəhrəmanlarla yanaşı, mən vacib daha 2 persona da görürəm; Gil və Qamış-gil üzərində qamışla yazılan dastan. Düz 4 min il sonra aşkar edilən bu gil lövhələr Şumerlərin qələminin qırılmasına imkan vermədi.

Əmək bölgüsünün başlanması ticarətin geniş vüsət almasına, ilk ipək yolunun formalaşmasına şərait yaratdı. İnsanların təbii mühitə uyğunlaşması üçün ən əlverişli zolaq ekvatorla şimal qütbündən təxminən bərabər məsafədə yerləşən 4-cü və 5 -ci paralellər ətrafı idi. Elə bu paralellər boyunca da Çindən başlayıb Hindistanın şimalı, Tibetlər, Pakistan, Kasıb dənizinin (yəni kaspinin) altından keçərək Şumerlər ərazisinə qədər gəlib çatmış və buradan da iki şaxəyə bölünməklə-a) Afrikanın şimalı, Cəbəllütariq boğazı,

b)Dardanel, Bosfor boğazı vasitəsi ilə Avropa kontinentinin içərilərinə doğru uzanmışdır.

Rənglərin ya ağ, ya da qaradan ibarət olaraq qəbul edilməsi diktatura əlamətidir. Demokratiya isə ağ və qara arasında onlarla rəngin, onlarla müxtəlif çalarların bir arada mövcud olmasıdır, bu hal tolerantlığın və multikulturalizmin qida mənbəyidir.

İstər qərb, istərsə də kommunist tarixşünaslığı Şumer sivilizasiyasına bu qədər maraq və tədqiqatdan sonra onun dilini ölü dil hesab edərək üstündən qara bir rəng çəkmişdir. İndi bizlər də "ağ" etmədən çalışıb bu dili işıq üzünə çıxardaraq ağartmalı, diriltməliyik.

O ki qaldı Şumerlərin avtoxton deyil, gəlmə olduqları məsələsinə-bu tam absurd bir yanaşmadı, çünki insanların əkinçiliyə bağlanıb bir yerdə qərar tutmasına qədər tayfaların və xalqların istisnasız olaraq hamısı Ç.Aytmatovun təbirincə desək, qatarlar şəklində şərqdən-qərbə və qərbdən də - şərqə doğru daima hərəkətdə olmuşlar. Şumerlərin Altaylardan ya da Kasıb Dənizinin qərb sahillərindən gəldikləri barədə mütəxəssislər 2 versiya üzərində dayanıblar.

İkinci versiyanı mən daha real hesab edirəm, bununla bağlı yalnız bir fakt gətirəcəm. Dünyanın ən çox tanınmış, nüfuzlu səyyahlarından olan norveçli Tur Heyerdal Qobustan qayaüstü piktoqrafik (şəkilli yazılar) yazılarını araşdırmaq üçün Azərbaycana 3 dəfə səyahət etmişdir. T. Heyerdalı bura cəlb edəndə vikinqlərin Azərbaycandan getməsi məsələsi idi. Onun əsaslandığı faktor o idi ki, həm Qobustanda, həm də Skandinaviya yarımadasında qaya üzərində vikinq qayıq təsvirləri və od ətrafında yallı rəqsləri bir-birinin eynisi idi. Qayıq təsvirlərinə bir sıra qədim mədəniyyətlərdə -Misirdə, Babildə, Aralıq dənizi hövzələrində rast gəlinsə də onlar e.ə VII-VI min-dən o tərəfə keçmir. Qobustanda isə bu dövr e.ə XII-X min aid edilib mezolitin (orta daş dövrü) başlanması dövrünə təsadüf edir. T.Heyerdalın fikrincə, qayıq insanların ilkin nəqliyyat vasitəsi olub. Qobustan məsələsinə nisbətən geniş yer verməyimiz Şumerlərin Kasıb dənizi sahillərindən getməsi versiyasını əsaslandırmağa cəhdimizlə bağlıdır. Belə ki, öz varlıqlarını davam etdirmək üçün mezolit dövr insanları yalnız yığıcılığın və ovçuluğun ümidinə qala bilməzdilər, çünki yığıcılıq 3-4 ay davam edib, mövsümü xarakter daşıyırdı, ovçuluğa gəldikdə, ola bilərdi ki, insanlar aylarla ov edə bilməsin. Məhz belə bir çıxılmaz vəziyyətdə onlar Xəzər dənizinə ümid edə bilərdilər. Ona görə ki, bu dəniz ən müxtəlif keyfiyyətli balıq növləri ilə zəngin olub, ilin 365 günü boyunca balıqçılıq üçün əlverişli idi.

Odun qorunması üçün mağaraların, ovçuluq üçün dağ keçilərinin və dağ kəllərinin, balıqçılıq üçün isə dənizin lap yaxın məsafədə olması insanların əkinçilikdən əvvəl Qobustan vadisində uzun müddət məskunlaşmasını şərtləndirə bilərdi.

Məncə, Tur Heyerdalın Azərbaycana-Qobustana olan sirli səyahətlərinin səbəblərini burada axtarmaq lazımdır, elə Şumerlərin buradan cənuba, yəni Mesopatamiyaya doğru istiqamət almalarını da.

Ən amansız, dar məqamlarda əlacsız qalan insanların köməyinə gələn Xəzər dənizini elə bu anlamda mən Kasıbların dənizi deyə təqdim etdim. XX əsrin 90 cı illərində bu dəniz əli hər yerdən üzülmüş bir milyon qaçqın və məcburi köçkünü öz qoynuna alaraq ümidsizlərin, kasıbların dənizi olduğunu bir daha subut etdi.

Tarixin atası hesab edilən Heradot "Tarix" əsərində Kaspi dənizinin qərb sahillərində müxtəlif dillərdə danışan 20-dən çox tayfa və xalqların adını çəkir və onların birgə, yanaşı yaşadıqları haqqında məlumat verir. Bu fakt hələ qədim zamanlarda Azərbaycan ərazisinin necə tolerant və beynəlmiləl tərkibə malik olduğunu göstərir. Belə bəşəri dəyərlər genofondumuzu təşkil edərək indiki günümüzə qədər də davam edir.

Düşünürəm ki, ikinci dəfə Xudu Məmmədovun adını çəkməklə onun ruhunu şad etmiş olarıq. Dünyaca məşhur olan alimimiz deyir ki,"Vətənin sərhədləri insan sevgisinin hüdudları qədərdir-sevgin nə qədər böyükdürsə Vətənin də bir o qədər genişdir". Ehtimal edirəm ki, bizim vətən sevgimizin isti alovları Şumerlər sivilizasiyasının işıldayan közərtilərini körükləyir, sərhədlərinə dəyir, toxunur və bumeranq kimi Kaspinin Qobustan sahillərinə qayıdır.

Bu ilk sivilizasiyaya soyuq münasibətdən yaranmış buz dağları artıq çat verib, oradan ayrılan "Şumer Aysberqi " cənuba tərəf yön alıb.

A.Eynşteyndən yenə bir fikir gətirib mövzunu hələlik qapatmağa çalışacam. O deyirdi ki, hisslərimiz, təsəvvürlərimiz, fərziyyələrimiz elmdən öndə gəlir, onun üzərində qərarlaşır. Keçmiş tariximizə, gələcəyimizə, uzaq-uzaq məkanlara təsəvvürlərimizlə iz açırıq, sonra isə elm bu cığırları faktlara əsaslanaraq dayanıqlı, geniş bir yola çevirir; hisslər axtarıb tapır, elm isə təsdiq edir.

Bu kiçik yazıda mənim istinad etdiyim, arxa-

landığım -təsəvvürlər, məntiqi yanaşma, çoxlu sayda Şumer və Azəri sözlərinin forma və məzmun eyniliyi hər iki dilin aqlütinativ dillər sisteminə aid olması idi, bizi o sivilizasiya ilə bağlayan münasibətlərin konturları idi.

Belə bir qənaətdəyəm ki, bu qədər zəngin və qədim mədəniyyətə obyektiv və real münasibətlər getdikcə daha geniş vüsət alacaqdır. Bu baxımdan belə bir ağır yükün qaldırılması üçün çox sayda mütəxəssislər qrupunun cəlb olunmasına ehtiyac var. Yalnız belə bir birliyin köməyi ilə uğura nail olmaq olar.

Ona görə deyirlər ki, təklikdə güc Allaha məxsusdur.

***Hörmətlə; Həsən R. Həsənov***

Tariximizdə Şumer izləri, yoxsa, Şumerin özü...

Bəşər tarixinin başlanğıcının şumerlərlə bağlı olduğunu bir çox alimlər, o cümlədən məşhur arxeoloq Leonard Vulli, Kramer və başqaları qeyd etmişlər. Şumer tarixini “Tarixin sübh çağı“ adlandırmışlar və haqsız da deyillər. Bizim məqsədimiz bununla bağlı hər hansı bir dəyişiklik etmək, deyilənlərə yeniliklər gətirmək deyil. Mərhum arxeoloq Nəsib Muxtarovun Oğuz rayonunun Kərimli kəndində tədqiqata cəlb etdiyi kurqanda (burada 10-dək kurqan aşkar etmiş və onlardan cəmi 2-sində qazıntı apara bilmişdi) aşkar edilən arxeoloji materialların verdiyi faktları oxucuların nəzərinə çatdırmaqdır.

Yuxarıda adı qeyd olunan ərazidə arxeoloji qazıntı aparılan kurqanda hakimiyyət simvolu olan öküz başlı hökmdar əsası, yerə daş döşənməklə kurqanın içərisində, torpaq döşəmədə yaradılan Ay təsviri eramızdan əvvəl ikinci minilliyin birinci yarısına aid olduğu arxeoloq tərəfindən müəyyən edilmişdi.

Məlumdur ki, Mesopatamiyada aparılan arxeoloji qazıntılar zamanı hakimiyyət simvolu olan bir neçə “öküz başlı hökmdar əsası” aşkar edilib. Təəssüf ki, bu nadir tapıntı barədə elmi ədəbiyyatlarda gərəkli məlumat yoxdur. Kurqanda qazıntı zamanı aşkar olunan muncuqlar, hələ eradan əvvəl ikinci minilliyin əvvəllərində Mesopatamiya və Hindistanla ticarət əlaqələrinin olduğunu göstərirdi. Fadlun Əfəndinin tədqiqatları şumerlərin Ay inancı ilə Azərbaycanda da bununla bağlı paralellər olduğunu deməyə əsas verir.

N. Muxtarovun Kərimli kurqanında üzə çıxardığı faktlar bu bənzərliyin bir təsadüf olmadığını, əksinə, şumerlərlə çox sıx bağlılığın sübutu idi.

Bu gün də nənə və babalarımızın dilində işlədilməkdə olan əppək, tənə, mintənə, su, hava sözlərinə minillər öncəki şumer gil kitabələrində də rastlanır. Təəssüf ki, hələ də dünyanın aparıcı şumerşünaslarının çoxu anti türkçülük mərəzindən xilas ola bilməmişlər...

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Məmmədli A. Şimal-Qərbi Azərbaycanın arxeologiyası və etnoqrafiyası. Bakı,Oka ofset, 2009, 160 s.
2. Məmmədli A.Arxeoloqlar. Kurqan və nekropollarda tarixin xəzinələri. Bakı, Adiloğlu, 2010,112 s.
3. Фадлун Эфенди. Этносознания турецких народов и их искуство. Алтай-Шумер-Гобустан. Баку, 1957.
4. Эрих Церен. Лунный Бог. Москва, 1976.
5. Эрих Церен. Библейские холмы. Москва, 1986.
6. S.N.Kramer " Tarix Sumerdə başlar " 2002 . il 489 səh.
7. M.İ.Çığ " Sumerli Lidinqirra" 2012 il 192 s
8. O.Suleymanov " Az-- Ya " şərq - qərb Bakı 2007 il 272 s.
9. Bilqamıs dastanı (hər şeyi bilən insanın dastanı). Bakı, 1985.
10. Müəzzəz İlmiyə Çığ. Şumerli Lidinqirra. Bakı, 2012, 192s.